

# Şuşanın ekoloji problemləri tezliklə həll olunacaq

***Şuşanın alçaq dağlıq və dağətəyi sahələrində vaxtilə işğalçıların dağıtdığı meşələrin yerində çəmənlərin və kserofit kolluqların inkişafı müşahidə edilib. Bu barədə Milli Elmlər Akademiyasının Botanika İnstitutu məlumat yayıb.***

Bildirilib ki, Azərbaycanın Qarabağ bölgəsində yerləşən Şuşa və Füzuli rayonuun ətraf ərazilərində Botanika İnstitutunun baş direktoru Səyyarə İbadullayeva, etnobotanika laboratoriyasının aparıcı elmi işçiləri Elman Yusifov və Nuri Mövsümovanın iştirakı ilə ilkin botaniki ekspedisiya həyata keçirilib.

Ekspedisiyanın məqsədi 30 ilə yaxın müddətdə erməni işğalı altında qalmış Şuşa və ətraf ərazilərin bioloji müxtəlifliyi, o cümlədən bitki örtüyünə işğalçılar tərəfindən vurulan zərərin qiymətləndirilməsi, mövcud floristik vəziyyətin monitorinqi, həmçinin Azərbaycanın "Qırmızı kitabı"nın III nəşrinə salınması nəzərdə tutulmuş növlərin axtarışı, arealının və limit faktorlarının müəyyənləşdirilməsi, populyasiyalar daxili fərdlərin inkişaf tendensiyalarının izlənilməsi olub.

Ekspedisiya müddətində Şuşa şəhəri ətrafı, Cıdır düzü, Daşaltı və Topxana meşə əraziləri ANAMA əməkdaşlarının iştirakı ilə təftiş olunub. Ərazidə meşə bitkiliyi, meşə ətrafı çəmən bitkiliyi, qaya bitkiliyi tədqiq edilib. Regionun alçaq dağlıq və dağətəyi sahələrində vaxtı ilə işğalçılar tərəfindən dağıdılan meşələrin yerində çəmənlərin və kserofit kolluqların inkişafı müşahidə edilib. Tədqiq olunan ərazilərdən toplanılmış bitki nümunələrinin GPS məlumatları qeydə alınıb və yerindəcə herbariləşdirilib. Ərazidən vaxtı ilə toplanmış və indiyədək Botanika İnstitutunun herbari fondunda saxlanılan geofit bitkilərin yerləşdiyi yerlər müəyyənləşdirilib.

Qeyd edək ki, hazırda işğaldan azad edilmiş torpaqlarda aqrar sahənin inkişafı ilə bağlı dövlət tərəfindən mühüm tədbirlər görülür. Qısa müddət ərzində Şuşa rayonu və ətraf ərazilərdə kənd təsərrüfatının aparıcı sahələrindən olan taxıl sahələrinin, həmçinin meşə təsərrüfatının yenidən bərpası məqsədilə fındıq plantasiyalarının salınması təqdirəlayiqdir.

***M.MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 21 sentyabr.- S.8.